# Hilas və Filonus arasında üç dialoq

written by CorcBerkli

*Corc Berkli (1685-1753) məşhur britaniyalı filosofdur. Onun Hilas və Filonus arasında üç dialoq (Three Dialogues between Hylas and Philonous) əsəri qabaqcıl universitetlərin bir çoxunda fəlsəfə ixtisası üzrə təhsil alan ilk kurs tələbələrinə oxunması tövsiyə olunan əsərlərdən biridir. Əsər dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmişdir.*

***Birinci dialoqun dördüncü hissəsi** (mətnin sonunda dialoqun əvvəlki hissələrinə və Ön sözə keçid yerləşdirilmişdir)*

**Hilas:** Filonus, etiraf edirəm ki, ağlımdan keçənlərə diqqətlə baxanda tapa bildiyim yalnız odur ki, mən çeşidli duyğular ilə təsirə məruz qalan düşünən varlığam; duyğunun qavramayan substansiyada mövcud olmasını isə anlamaq mümkünsüzdür. Hərçənd, digər tərəfdən də, hissi şeyləri müxtəlif modifikasiyalar və keyfiyyətlər kimi nəzərdən keçirərək onlara fərqli şəkildə baxdıqda, maddi bir *substrat*ı güman etməyi zəruri hesab edirəm – o maddi substrat ki, mövcud olmadan onların varlığı təsəvvür edilə bilməz.

**Filonus:** Bunu *maddi substrat* adlandırırsınız? Deyin, zəhmət olmasa, hansı hissiniz vasitəsilə bu varlıqla tanış oldunuz?

**Hilas:** O, özlüyündə hissi deyil; yalnız onun modifikasiyaları və keyfiyyətləri hisslərlə qavranılır.

**Filonus:** Onda güman edirəm, onun haqqında ideyanı refleksiya və ağıl yolu ilə əldə etmisiniz.

**Hilas:** Mən iddia etmirəm ki, onun barəsində hər hansı uyğun, pozitiv ideyaya sahibəm. Ancaq nəticə çıxarıram ki, o, mövcuddur, çünki keyfiyyətlərin mövcudluğu daşıyıcı olmadan təsəvvür edilə bilməz.

**Filonus:** Onda görünür, maddi substansiya barəsində yalnız nisbi anlayışa maliksiniz; və ya siz maddi substansiyanı yalnız onun hissi keyfiyyətlərlə əlaqəsini təsəvvür edərək anlayırsınız.

**Hilas:** Düzdür.

**Filonus:** Zəhmət olmasa, söyləyin, o nə əlaqədir?

**Hilas:** Bu, *substrat* və ya *substansiya* terminində kifayət qədər ifadə edilirmi?

**Filonus:** Əgər elədirsə, onda *substrat* sözü hissi keyfiyyətlər və aksidensiyaların altında yayılmış olanı bildirməlidir?

**Hilas:** Doğrudur.

**Filonus:** Və nəticə etibarilə yertutumun altında olanı da?

**Hilas:** Razılaşıram.

**Filonus:** Deməli, o, təbiətinə görə yertutumdan tamamilə fərqlidir?

**Hilas:** Deyirəm sizə, yertutum sadəcə modifikasiyadır, materiya isə modifikasiyaların daşıyıcısıdır. Bəs, aşkar deyilmi ki, daşınan şey daşıyıcı olandan fərqlidir?

**Filonus:** Demək, yertutumdan fərqli və onun ehtiva etmədiyi nəsə yertutumun *substratı* hesab olunur?

**Hilas:** Elədir.

**Filonus:** Mənə cavab verin, Hilas. Bir şey yertutumsuz yayılmış ola bilər? Və ya yertutumluluq ideyası zəruri olaraq *yayılma*da ehtiva edilmirmi?

**Hilas:** Edilir.

**Filonus:** Deməli, nəyinsə altında yayılmış hesab etdiyiniz hər nəsə özlüyündə altında yayıldığı şeyin yertutumundan fərqli bir yertutuma malik olmalıdır?

**Hilas:** Elə olmalıdır.

**Filonus:** Demək, hər bir maddi substansiya yertutumun *substrat*ı olaraq özündə başqa bir yertutuma malik olmalıdır; o yertutuma ki, onu *substrat* edir – və beləcə sonsuza qədər? Onda mən sual edirəm ki, bu, özlüyündə absurd deyilmi və sizin indicə razılaşdığınız, *substrat* yertutumdan fərqli və onu istina edən şeydir, fikrinə zidd deyilmi?

**Hilas:** Hə, ancaq, Filonus, məni yanlış anlayırsınız. Mən onu nəzərdə tutmuram ki, Materiya, kobud ifadə etsək, yertutum altında *yayılmışdır.* "Substrat" sözü sadəcə, "substansiya" ilə eyni şeyi ifadə etmək üçün istifadə edilir.

**Filonus:** Yaxşı, gəlin onda "substansiya" terminində ehtiva edilmiş münasibəti təhlil edək. Bu, keyfiyyətlərin altında dayanan şey deyilmi?

**Hilas:** Elədir ki var.

**Filonus:** Bəs, bir şeyin digərinin altında dayanması və ya dəstəkləməsi üçün o, genişlənmiş olmalı deyilmi?

**Hilas:** Olmalıdır.

**Filonus:** Onda bu fərziyyə də əvvəlki kimi eyni absurda gətirib çıxarmırmı?

**Hilas:** Siz hələ də məsələləri ciddi hərfi mənada nəzərdən keçirirsiniz; bu, ədalətli deyil, Filonus.

**Filonus:** Sizin sözlərinizə hər hansı bir məna yükləmək istəmirəm; onları istədiyiniz kimi izah etməkdə azadsınız. Ancaq zəhmət olmasa, mənə onlar vasitəsilə nəyisə başa salın. Mənə deyirsiniz ki, materiya keyfiyyətləri dəstəkləyir və ya onların altında dayanır. Necə? Sizin ayaqlarınız bədəninizi dəstəkləyən kimi?

**Hilas:** Xeyr, bu, hərfi mənadır.

**Filonus:** Zəhmət olmasa, hansı mənada başa düşdüyünüzü mənə

deyin – hərfi və ya qeyri-hərfi. … Cavab üçün nə qədər gözləməliyəm, Hilas?

**Hilas:** Bildirim ki, nə deyəcəyimi bilmirəm. Əvvəl düşünürdüm ki, Materiyanın keyfiyyətlər daşımasının nə demək olduğunu kifayət qədər yaxşı anlamışam. Ancaq indi bu barədə nə qədər çox düşünürəmsə, bir o qədər az anlayıram; qısası, mənə elə gəlir, bu barədə heç nə bilmirəm.

**Filonus:** Onda, görünür, materiya haqqında nə birbaşa, nə də dolayı – ümumiyyətlə, heç bir ideyanız yoxdur; siz nə onun özü-özlüyündə nə olduğunu, nə də keyfiyyətlərlə necə münasibətdə olmasını bilmirsiniz?

**Hilas:** Bunu qəbul edirəm.

**Filonus:** Və hələ təsdiq etmişdiniz ki, eyni zamanda keyfiyyətlər və ya aksidensiyaların maddi dayağını anlamadan onların gerçək olaraq necə mövcud olduğunu təsəvvür edə bilməzsiniz.

**Hilas:** Təsdiq etmişdim.

**Filonus:** Bu, o deməkdir ki, keyfiyyətlərin gerçək varlığını təsəvvür edərkən, siz həmçinin təsəvvür edə bilmədiyiniz nəyisə təsəvvür edirsiniz?

**Hilas:** Etiraf edirəm ki, bu, yanlış idi. Ancaq hələ də qorxuram ki, burada nəsə bir səfsətə olar. Zəhmət olmasa, deyin: bu barədə nə düşünürsünüz? İndicə ağlıma gəldi ki, bütün səhvlərimizin əsası hər bir keyfiyyəti özlüyündə nəzərdən keçirməyinizdədir. Razılaşıram ki, hər keyfiyyət təklikdə zehindən kənarda mövcud ola bilməz – rəng yertutumsuz, nə də forma hansısa digər hissi keyfiyyət olmadan ola bilməz. Ancaq birləşmiş və qarışmış bir sıra keyfiyyətlər birlikdə bütöv hissi şeyləri yaratdığından, belə şeylərin zehindən kənarda mövcud ola bilməsini güman etməyə heç nə mane olmur.

**Filonus:** Hilas, siz ya zarafat edirsiniz, ya da çox pis

yaddaşınız var. Baxmayaraq ki, biz əslində bütün keyfiyyətləri adbaad bir-birinin ardınca nəzərdən keçirdik, mənim arqumentlərim və ya daha doğrusu, sizin güzəştləriniz, heç bir halda ikinci dərəcəli keyfiyyətlərin bir-birindən təcrid şəklində mövcud olmamasını deyil, onların *ümumiyyətlə* zehindən kənarda olmamasını sübut etməyə niyyətli idi. Əslində forma və hərəkəti müzakirə etməklə nəticəyə gəldik ki, onlar zehindən kənarda mövcud ola bilməzlər, çünki onların müstəqil mövcudluğunu təsəvvür etmək kimi, düşüncədə belə onları bütün ikinci dərəcəli keyfiyyətlərdən ayırmaq qeyri-mümkün idi. Ancaq bu, həmin məsələdə istifadə edilən yeganə arqument deyildi. Buna baxmayaraq (istəsəniz, indiyə qədər söylənilənlərin üstündən keçib onları heçə saymaqla) bütün bunları aşağıdakı məsələnin üzərinə gətirməyə razıyam. Əgər siz keyfiyyətlərin hər hansı qarışımının və ya birləşməsinin, yaxud hər hansı bir hissi obyektin zehindən kənarda mövcudluğunun mümkün olmasını təsəvvür edə bilirsinizsə, onda mən bunun həqiqətən belə olması ilə razılaşacağam.

**Hilas:** Əgər məsələ bunun üzərinə gəlib çıxırsa, onda o, tezliklə həll olunacaq. Özlüyündə mövcud olan, zehindən asılı olmayan və onun tərəfindən qavranılmayan ağac və ya evi təsəvvür etməkdən daha asan nə ola bilər? Mən hazırda onların bu şəkildə mövcudluğunu təsəvvür edirəm.

**Filonus:** Bəs, deyin görək, Hilas, görünməz olan bir şeyi eyni zamanda görə bilirsiniz?

**Hilas:** Xeyr, bu ziddiyyət olardı.

**Filonus:** Bəs təsəvvür edilməz bir şeyin təsəvvür edilməsindən danışmaq eyni dərəcədə böyük ziddiyyət deyil?

**Hilas:** Elədir.

**Filonus:** Onda, haqqında düşündüyünüz ağac və ya ev sizin tərəfinizdən təsəvvür edilir?

**Hilas:** Başqa cür necə ola bilər ki?

**Filonus:** Və təsəvvür edilən şey şübhəsiz zehindədir?

**Hilas:** Heç bir sorğusuz, təsəvvür edilən şey zehindədir.

**Filonus:** Bu halda ağacın və ya evin heç bir zehindən asılı olmadan və ondan kənarda mövcudluğunu təsəvvür etdiyinizi deməyə sizi nə sövq etdi?

**Hilas:** Bu bir diqqətsizlik idi, etiraf edirəm. Ancaq dayanın. İcazə verin məni buna sövq edən məsələ barədə düşünüm. – Bu, maraqlı bir səhv idi. Ağacı görməyə heç kimin olmadığı yalnız bir yerdə onun barəsində düşünərkən – onu özümün bütün bu vaxt ərzində təsəvvür etdiyimi nəzərdən qaçıraraq -fikirləşirdim ki, bu, qavranılmayan və ya barəsində düşünülməyən bir ağacı təsəvvür etməkdir. Ancaq indi aydın şəkildə görürəm ki, edə biləcəyim şey yalnızca öz zehnimdə ideyalar formalaşdırmaqdır. Mən öz düşüncələrimdə ağac, ev və ya dağ ideyasını təsəvvür edə bilərəm – yalnız bu qədər. Və bu, onu sübut etməkdən uzaqdır ki, mən onları *bütün Ruhların zehnindən kənarda mövcudluğunu* təsəvvür edə bilərəm.

**Filonus:** Demək, razılaşırsınız ki, hər hansı cismani hissi şeyin zehindən kənarda necə mövcud olmasını təsəvvür edə bilmirsiniz?

**Hilas:** Bəli.

**Filonus:** Və siz təsəvvür edə bilmədiyiniz bir şeyin həqiqiliyi üçün hələ də səylə mübahisə edəcəksiniz?

**Hilas:** Etiraf edirəm ki, nə düşünəcəyimi bilmirəm; ancaq hələ də bəzi şübhələrim var. Dəqiq deyilmi ki, mən şeyləri məsafədən görürəm? Məgər biz, məsələn, ulduzları və Ayı uzaq məsafədən qavramırıq? Yəni onlar hisslər üçün açıq deyilmi?

**Filonus:** Bunlara bənzər obyektləri yuxularınızda da qavramırsınız?

**Hilas:** Qavrayıram.

**Filonus:** Elə isə onlar eyni şəkildə uzaq məsafədən görünmürlər?

**Hilas:** Görünürlər.

**Filonus:** Ancaq siz qərara gəlmirsiniz ki, yuxudakı görüntülər zehindən kənardadır?

**Hilas:** Heç bir halda.

**Filonus:** Ona görə də hissi obyektlərin görünüşlərinə və sizin onları qavrama şəklinə əsasən o nəticəyə gəlməməlisiniz ki, onlar zehindən kənardadır.

**Hilas:** Bunu qəbul edirəm. Ancaq belə olan halda hisslərim məni aldatmayacaqmı?

**Filonus:** Heç bir halda. Birbaşa qavradığınız ideya və ya şeyin əslində zehindən kənarda mövcud olduğunu nə hisslər, nə də ağıl sizə bildirmir. Hisslər vasitəsilə siz yalnız onu bilirsiniz ki, sadəcə müəyyən belə işıq, rəng və s. duyğuları ilə təsirlənirsiniz. Və siz deməyəcəksiniz ki, bunlar zehindən kənardadır.

**Hilas:** Doğrudur. Lakin bütün bunlardan savayı düşünmürsünüz ki, görmə nələrinsə zehindən *kənarda* və *məsafədə* olmasını təlqin edir?

**Filonus:** Uzaq bir obyektə yaxınlaşdıqda görünən ölçü və forma daim dəyişir, yoxsa hər məsafədən eyni cür görünür?

**Hilas:** Onlar davamlı dəyişməkdədir.

**Filonus:** Demək, görmə sizə birbaşa qavradığınız obyektin uzaqda mövcudluğunu və ya *onun* daha irəli getdiyinizdə qavranılacağını təlqin etmir və ya hansısa şəkildə bildirmir; sizin yaxınlaşma müddəti ərzində görünən obyektlərin bir-birinin ardınca davam etmiş silsiləsi var.

**Hilas:** Elədir. Ancaq buna baxmayaraq obyektə baxarkən, müəyyən məsafə qət etdikdən sonra hansı obyekti görəcəyimi bilirəm –

fərq etmir, bu məhz eyni obyektdir, ya deyil. İstənilən halda, nəyinsə məsafədə olması hələ də təlqin edilir.

**Filonus:** Yaxşı, Hilas, bu məsələ üzərində bir balaca düşünün və sonra mənə deyin görüm məsələdə indi söyləyəcəyimdən əlavə nəsə varmı: görmə vasitəsilə qavradığınız ideyaları təcrübə etməklə öyrənmisiniz ki, siz (dayanıqlı təbii nizama əsasən) belə bir müəyyən zaman və hərəkət ardıcıllığından sonra başqa hansı ideyalarla təsirlənəcəksiniz.

**Hilas:** Bütövlükdə götürsək, bunu başqa cür təsəvvür etmirəm.

**Filonus:** Aydın deyilmi ki, anadangəlmə kor bir insanın gözünün birdən-birə açılmasını güman etsək, o, görmə tərəfindən təlqin olunan şey barədə ilk olaraq təcrübəyə malik ola bilməz?

**Hilas:** Aydındır.

**Filonus:** Sizin fikrinizcə, onda o, gördüyü şeylərə aid edilən hər hansı bir məsafə anlayışına malik olmayacaq; onları yalnız zehnində mövcud olan yeni bir duyğular çoxluğu hesab edəcək.

**Hilas:** Bu, inkaredilməzdir.

**Filonus:** Ancaq məsələni daha sadə tutaq: *məsafə* birbaşa gözə istiqamətlənmiş xətt deyilmi?

**Hilas:** Xətdir.

**Filonus:** Bu cür yerləşmiş xətt görmə vasitəsilə qavranıla bilər?

**Hilas:** Bilməz.

**Filonus:** Buradan belə çıxmırmı ki, məsafə görmə tərəfindən uyğun olaraq və dərhal qavranılmır?

**Hilas:** Belə çıxmalıdır.

**Filonus:** Digər tərəfdən, sizin fikrinizcə, rənglər məsafədə yerləşirlər?

**Hilas:** Qəbul edilməlidir ki, onlar yalnız zehindədirlər.

**Filonus:** Bəs rənglər gözə yertutum və formalar ilə eyni yerdə həmmövcuddurlar kimi görsənmirlərmi?

**Hilas:** Görsənirlər.

**Filonus:** Madam ki, qəbul edirsiniz, rənglər zehindən kənarda mövcud deyil, onda siz görmə vasitəsilə necə belə nəticəyə gələ bilərsiniz ki, formalar kənarda mövcuddur; hissi təzahür hər ikisinə münasibətdə eyni deyilmi?

**Hilas:** Bilmirəm, nə cavab verim.

**Filonus:** Hərçənd, güman etsək ki, məsafə həqiqətən və dərhal zehin tərəfindən qavranılır, buradan yenə də belə çıxmazdı ki, o, zehindən kənarda mövcuddur?. Çünki birbaşa qavranılan şey ideyadır. Bəs hər hansı *ideya* zehindən kənarda mövcud ola bilər?

**Hilas:** Bunu güman etmək absurd olardı: ancaq deyin mənə, Filonus, ideyalarımızdan savayı heç nəyi qavraya və ya bilə bilmərik?

**Filonus:** Səbəbləri nəticələrdən rasional olaraq çıxarmağa gəldikdə isə, bu, bizim araşdırmamızdan kənar bir şeydir. Və hisslər vasitəsilə siz ən yaxşı halda onu söyləyə bilərsiniz ki, birbaşa qavranılmayan nəyisə qavrayırsınız, ya yox. İndi sizdən soruşuram: birbaşa qavranılan şeylər sizin duyğu və ideyalarınızdan fərqli şeylərdir? Əslində siz özünüz bir neçə dəfə söhbətin gedişində bu məsələlər barədə fikir bildirdiniz. Görünür, ancaq bu sonuncu sualla sonrakı düşüncənizdən əl çəkdiniz.

**Hilas:** Doğrusunu desəm, Filonus, düşünürəm ki, iki növ obyektlər var: biri həm də *ideyalar* adlandırılan birbaşa qavranılanlar; digəri gerçək şeylər və ya xarici obyektlər, hansı ki onların şəkilləri və inikasları olan ideyalar vasitəsilə qavranılırlar. Hə, mən qəbul edirəm ki, ideyalar zehinsiz mövcud deyillər; ancaq sonuncu növ obyektlər

mövcuddurlar. Təəssüf edirəm ki, bu fərq barədə əvvəlcədən düşünməmişəm. Yəqin ki, bu, söylədiklərinizin bir qismini ixtisara salmış olardı.

**Filonus:** Bu xarici obyektlər hisslər, yoxsa hər hansı başqa bir bacarıq tərəfindən qavranılır?

**Hilas:** Hissiyyat vasitəsilə qavranılır.

**Filonus:** Necə! Birbaşa qavranılmayan və hissiyyat vasitəsilə qavranılan nəsə varmı?

**Hilas:** Bəli, Filonus, müəyyən növdə var. Məsələn, Yuli Sezarın şəklinə və ya heykəlinə baxdıqda, müəyyən cür deyilə bilər ki, mən onu (birbaşa olmasa da) hisslərim vasitəsilə qavrayıram.

**Filonus:** Görünür, onda siz yalnızca birbaşa qavranılan ideyalarımızı xarici obyektlərin şəkilləri kimi qəbul edirsiniz.Və ideyalarımıza uyğunluq və ya oxşarlığı olduğu qədəri ilə, bunlar da hissiyyat vasitəsi ilə qavranılır?

**Hilas:** Elə düşünürəm.

**Filonus:** Eynilə Yuli Sezarın özlüyündə görünməz olmasına baxmayaraq, görmə vasitəsilə qavranılması kimi, özlüyündə qavranılmaz olan gerçək şeylər hissiyyat tərəfindən qavranılır.

**Hilas:** Eynilə.

**Filonus:** Söyləyin mənə, Hilas, Yuli Sezarın şəklinə baxdıqda, gözlərinizlə bütövün müəyyən simmetriyası və kompozisiyasında bəzi rəng və formalardan daha artığını görürsünüz?

**Hilas:** Artıq heç nə.

**Filonus:** Bəs Yuli Sezarı haqqında heç nə bilməyən birisi eyni qədər görərdi?

**Hilas:** Bəli.

**Filonus:** Deməli, o, öz görməsinə və ondan istifadəyə sizin sahib olduğunuz qədər yaxşı sahibdir.

**Hilas:** Sizinlə razıyam.

**Filonus:** Onda necə olur ki, sizin düşüncələriniz Roma imperatoruna istiqamətlənmiş olur, ancaq onunku yox? Bu, tərəfinizdən qavranılan hissiyatın duyğu və ya ideyalarından yarana bilməz, çünki qəbul edirsiniz ki, sizin bu baxımdan hissiyyat üzərində üstünlüyünüz yoxdur. Görünür, onda o, ağıl və yaddaşdan yaranmalıdır, elə deyilmi?

**Hilas:** Elədir.

**Filonus:** Deməli, bu misaldan belə çıxmır ki, birbaşa qavranılmayan hissiyyat nəsə bir şey tərəfindən qavranılır. Baxmayaraq, qəbul edirəm ki, müəyyən mənada deyilə bilər ki, biz hissi şeyləri hissiyyat vasitəsilə vasitəli qavrayırıq; bu, o zaman baş verir ki, tez-tez qavranılan əlaqə olduğuna görə, bir hissiyyat tərəfindən ideyaların birbaşa qavranılması zehnə, ola bilsin, digər bir hissiyyata aid, ancaq adəti üzrə həmin ideyalarla əlaqəli, başqa ideyaları təlqin edir. Məsələn, küçədən araba keçdiyini eşidəndə, mən birbaşa yanlız səsi qavrayıram; ancaq belə bir səsin araba ilə əlaqəli olması təcrübəsinə malik olduğumdan, deyilə bilər ki, mən arabanı eşidirəm. Hərçənd, aydındır ki, sözün həqiqi və ciddi mənasında *səs*dən başqa heç nə *eşidilə* bilməz. Demək, araba əslində hissiyyat tərəfindən qavranılmır, təcrübədən təlqin edilir. Oxşar şeyi bizim isti-qırmızı dəmir külçə görməyimiz barədə demək olar; dəmirin istisi və bərkliyi görmənin obyektləri deyil, onlar təxəyyülə əslində həmin hissiyyat tərəfindən qavranılan rəng və forma tərəfindən təlqin edilir. Qısası, hissiyyatlar tərəfindən yalnız o şeylər həqiqi və ciddi mənada qavranılır ki, onlar eyni hissiyyat bizə ilk olaraq verilmiş olan halda da qavranılmış olsun. Digər hallara gəldikdə isə, aydındır ki, onlar zehnə əvvəlki qavrayışlar əsasında, təcrübə tərəfindən təlqin edilir. Ancaq sizin Sezarın şəkli müqayisənizə qayıtsaq, aydındır ki, əgər ondan

yapışmısınızsa, qəbul etməlisiniz ki, gerçək şeylər və ya ideyalarımızın ilkin obrazları (arxetiplər) hissiyyat tərəfindən deyil, ruhun yaddaş və ya ağıl kimi hansısa daxili imkanı hesabına qavranılır. Ona görə məmnuniyyətlə bilmək istərdim ki, ağıldan *gerçək şeylər* və ya *maddi şeylər* adlandırdıqlarınızın mövcudluğu lehinə hansı arqumentləri çıxara bilərsiniz. Və ya əvvəllər onları özü-özlüyündə olan olaraq gördüyünüzü xatırlayırsınız; yaxud, bunu kiminsə etdiyi barədə eşidib və ya oxumusunuz?

**Hilas:** Filonus, görürəm ki, zarafata meyllisiniz; ancaq bu, məni heç vaxt inandırmaz.

**Filonus:** Məqsədim yalnız *maddi şeylər* haqqında biliyə gətirən yolu sizdən öyrənməkdir. Qavradığımız hər bir şey ya birbaşa, ya da dolayı qavranılır – ya hissiyyat vasitəsilə, ya da ağıl və refleksiya ilə. Ancaq siz hissiyyatı istisna etdiyinizə görə, zəhmət olmasa, mənə göstərin, onların mövcudluğuna inanmağınızın əsası nədir? Və ya bunu sübut etmək üçün mənim və ya sizin anlayacağınız hansı *vasitə*dən istifadə edə bilərsiniz?

**Hilas:** Düzünü desəm, Filonus, bu məsələni indi nəzərdən keçirdikdə, onun lehinə sizə yaxşı bir əsas verə biləcəyimi düşünmürəm. Ancaq mənə kifayət qədər aydındır ki, belə şeylərin gerçək olaraq mövcud ola bilməsi ən azı mümkündür. Və nə qədər ki onların mövcudluğunu güman etmək absurd deyil, siz yaxşı əks arqumentlər gətirənə qədər öz fikrimdə qalmağı qərara almışam.

**Filonus:** Necə! Yalnız maddi şeylərin mövcudluğuna inanmağa və fikrinizi yalnız bu inamın doğru olmasının mümkünlüyü ilə əsaslandırmağa qədər gəlib çıxırsınız? İndi də tələb edirsiniz ki, bunun əleyhinə əsaslar gətirim; hərçənd, başqa birisi ağlabatan hesab edərdi ki, sübut məsuliyyəti məsələni təsdiq edənin üzərində olmalıdır. Əvvəl-axır məhz bu, indi üzərində dayanmağı qərara aldığınız məsələni söhbətin gedişində əslində bir neçə dəfə güzəştə getməyə yaxşı əsasınız olub. Ancaq bütün

bunları kənara qoyaq: sizi düz başa düşürəmsə, deyirsiniz ki, ideyalarımız zehinsiz mövcud deyil; onlar zehinsiz mövcud olan müəyən orijinalların kopiyaları, şəkilləri və ya inikaslarıdır?

**Hilas:** Məni düz başa düşürsünüz.

**Filonus:** Onda onlar xarici şeylər kimidirlər?

**Hilas:** Bəli.

**Filonus:** Bu şeylər hissiyyatlardan asılı olmadan stabil və daimi təbiətə malikdirlər? Yoxsa hiss orqanlarımızı və ya hissi bacarıqlarımızı durdurmaq, gərmək və ya dəyişməklə bədənimizdə hərəkətlər meydana gətiririksə – onlar daimi dəyişiklikdədir?

**Hilas:** Aydındır ki, gerçək şeylər hissiyyatlarımızda və ya bədənimizin vəziyyəti və hərəkətində dəyişikliklər olmasına baxmayaraq dəyişməz qalan, həm əslində zehinlərimizdəki ideyalara təsir edə bilən bəlli və gerçək təbiətə malikdirlər. Ancaq onların zehinsiz mövcud olan şeylərə də eyni təsiri olduğunu düşünmək absurd olardı.

**Filonus:** Onda necə mümkündür ki, ideyalarımız kimi daima axıcı və dəyişkən olan şeylər dəyişməz və daimi olan şeylərin kopiyaları və ya şəkilləri olsun? Başqa sözlə, ölçü, forma, rəng və s. kimi bütün hissi keyfiyyətlər, yəni bizim ideyalarımız məsafədə, mühitdə və ya duyğu alətlərindəki hər dəyişiklikdən asılı olaraq daima dəyişdiyindən, bəlli maddi obyektlər necə hər biri digərindən bu qədər müxtəlif və başqalarına oxşamayan bir neçə fərqli şey tərəfindən uyğun şəkildə inikas oluna və ya cızıla bilərlər? Yaxud, əgər deyirsinizsə ki, o, yalnız ideyalarımızdan hansısa birinə oxşayır, həqiqi surəti saxtalardan necə fərqləndirə biləcəyik?

**Hilas:** Filonus, etiraf edirəm ki, çətin vəziyyətdəyəm. Buna nə deyəcəyimi bilmirəm.

**Filonus:** Hərçənd, bu, məsələnin hamısı deyil. Maddi obyektlər

özlüyündə qavranılandır, yoxsa qavranılmaz?

**Hilas:** Uyğun şəkildə və birbaşa ideyalardan başqa heç nə qavranıla bilməz. Ona görə də bütün maddi şeylər özlüyündə hissedilməzdir və yalnız ideyalarımız vasitəsilə qavranıla bilər.

**Filonus:** Onda ideyalar hissediləndir və onların arxetipləri və ya orijinalları qeyri-hissedilən?

**Hilas:** Düzdür.

**Filonus:** Bəs hissedilən nəsə hissedilməz nəsə kimi necə ola bilər? Özlüyündə *görünməz* gerçək bir şey *rəngə* oxşar ola bilər? Yaxud, *eşidilməz* gerçək bir şey *nəsə* kimi ola bilər? Bir sözlə, başqa bir duyğu və ya ideyadan savayı, hansısa bir şey duyğu və ya ideya kimi ola bilər?

**Hilas:** Etiraf etməliyəm ki, ola bilməz.

**Filonus:** Bu məsələ ilə bağlı hər hansı bir şübhənin olması mümkündürmü? Öz ideyalarınızı mükəmməl bilmirsiniz?

**Hilas:** Onları mükəmməl bilirəm, çünki qavramadığım və ya bilmədiyim ideyamın hissəsi ola bilməz.

**Filonus:** Ona görə onları nəzərdən keçirin və araşdırın, sonra isə mənə deyin: onlarda nəsə ola bilərmi ki, zehinsiz mövcud olsun? Yaxud, onlar kimi olan və zehinsiz mövcud olan nəsə təsəvvür edə bilərsiniz?

**Hilas:** Araşdırdıqda, ideyadan başqa nəyinsə ideya kimi necə ola bilməsini təsəvvür etmək və ya anlamaq mənim üçün mümkünsüz gəlir. Və ən aydın olanı odur ki, *heç bir ideya zehinsiz mövcud ola bilməz.*

**Filonus:** Buna görə də siz öz prinsiplərinizə əsasən hissi şeylərin gerçəkliyini inkar etməyə məcbur oldunuz; çünki qəbul etdiniz ki, gerçəklik zehindən kənar mütləq mövcudluqda şərtlənir. Bu, o deməkdir ki, siz tam skeptiksiniz. Beləliklə,

mən öz məqsədimə çatdım; o məqsəd ki, sizin prinsiplərinizin skeptisizmə apardığını göstəməkdən ibarət idi.

**Hilas:** Tam şəkildə inanmasam da, indilik ən azı susuram.

**Filonus:** Məmnuniyyətlə bilmək istərdim ki, tam şəkildə inanmaq üçün daha nə tələb edərdiniz? Bütün mümkün yollarla öz fikirlərinizi izahetmə azadlığına malik olmadınızmı? Müzakirədəki istənilən kiçik yanlışlıq üzərində dayanılıb, təkidlə nəzərdən keçirilmədimi? Məqsədinizə ən yaxşı xidmət edəcək şəkildə irəli sürdüyünüz istənilən iddiadan geri çəkilmək və ya gücləndirmək üçün sizə şərait yaradılmadımı? Deyə biləcəyiniz hər şeyə mümkün dəqiqliklə qulaq asılıb, təhlil edilmədimi? Bir sözlə, hər bir məsələyə öz dedikləriniz əsasında əmin olmadınızmı? Və əgər indi əvvəlki güzəştlərinizdə hər hansı bir qüsur aşkarlayırsınızsa, yaxud hər hansı qalan çıxış yolu, yeni fərqləndirmə və çalar və ya hər hansı bir cavab barədə düşünürsünüzsə, nəyə görə onu demirsiniz?

**Hilas:** Səbrli olun, Filonus. Hal-hazırda elə heyrətlənmişəm ki, özümü tələyə düşmüş hiss edirəm; siz məni sanki elə labirintə salmısınız ki, tezliklə oradan çıxmaq üçün yol tapacağımı gözləyə bilmərik. Mənə düşünüb, fikirlərimi toparlamağa vaxt verməlisiniz.

**Filonus:** Dayanın, bu, məktəbin zəngi deyil?

**Hilas:** İbadət üçün çalınır.

**Filonus:** Onda sizə uyğundursa, gedək, sabah səhər yenidən burada görüşərik. Bu vaxt ərzində bugünkü söhbət barədə yenidən düşünə və orada hər hansı bir qüsurü tapmağa və ya özünüzü vəziyyətdən çıxarmaq üçün yeni vasitələr aşkarlamağa cəhd edə bilərsiniz.

**Hilas:** Danışdıq.

***Çevirəni və Ön sözün müəllifi Anar Cəfərov***

**Berklinin Hilas və Filonus arasında üç dialoq əsərinin tərcüməsinə Ön söz**

https://bakuresearchinstitute.org/az/berklinin-hilas-ve-filonus-arasinda-uc-dialoq-eserinin-tercumesine-on-soz/

***Birinci dialoqun birinci hissəsi:***

https://bakuresearchinstitute.org/az/hilas-v%c9%99-filonus-arasinda-uc-dialoq/

***Birinci dialoqun ikinci hissəsi:***

https://bakuresearchinstitute.org/az/hilas-v%c9%99-filonus-arasinda-uc-dialoq-2/

***Birinci dialoqun üçüncü hissəsi:***

https://bakuresearchinstitute.org/az/hilas-v%c9%99-filonus-arasinda-uc-dialoq-3/